## İNCE RUHLU GÜZEL İNSAN!

Sizleri yakından tanıma bahtiyarlığına ermiş olmak, bizim için içi çeşit çeşit mücevherlerle dolu ve değerli bir hazineye sahip olmak demek........

Gerek şahsiyetiniz, dürüstlüğünüz, gerek samimiyetiniz ve ihlasınız, gerekse fedakarlık ve dostluğunuz gönül hazinemizde parıldayan inciler gibi....

Vuslatın kısa olmasına bakmayarak sizi bir ömür yad etmeyi, sevinç ve kederde hayalinizle birlikte olmayı isteriz. Sizin gibi bir ailemiz, abimiz olduğunu bilmek bize büyük güç, şükür ve gurur hissi vermektedir ...

Dostluk ve samimiyetinizin yanında iş prensipleriniz, hassasiyetiniz, merhametiniz, kalbinizdeki vatan, millet ve din sevdasının bütünüyle hareketlerinize yansıması, örnek ve fedakar bir baba, sadık bir eş olmanız, sevinci ve kederi paylaşma konusundaki karakteriniz ve daha bir cok numune tavırlarınız bizim için örnek alma ve gösterme anlamında bir lütuf ve kazançtır.

Sizi çok sevdik, çok seviyoruz. Aileniz ve çocuklarınızla birlikte size rabbimden sağlık, huzur, başarı ve hayırlı, şerefli ömürler temenni ediyoruz.

Hatıratlarınızda, kalbinizde, dualarınızda bizleride yad ediniz ...

Ölmüş diye hareketsiz bedenini insanların ellerinize teslim ettiği ve yüzlerce metre koşarak hastaneye yetiştirdiğimiz Altayturan ve Hakan, Sivasta Abdullah ve Ömer dedelerinin olduğunu hep bilecek ve gerekeni yapacaklar diye ümit ediyorum.

Ailenizden biri olmaya gönüllü ailemizden, iki dünyada da kabulümüz siz ailemize selam, hasret, sevgi, hürmet ve dua ile ……..

**Kadir BEKTAŞOĞLU**
*TDV Bakü Türk Lisesi Müdürü*

Ömər bəylə çox qısa bir həmkarlığımız oldu; iki il. Amma bu müddətin daha başlanğıcından aramızda səmimi bir münasibət başladı. Bu yaxınlığın səbəbi heç şübhəsiz Ömər bəyin istiqanlılığıydı. Ömər bəy həqiqətən də çox səmimi bir insandır. Bunu onun həm gündəlik münasibətindən, həm də ən ciddi və problemli məsələlərə yanaşmasından görmək mümkündür. Məsələ nə qədər ciddi və həlli çətin görünsə də Ömər bəy ikili insani münasibəti hər zaman qoruyub saxlamağı bacarır. Ömər bəyin əsl üstün cəhəti bu mehribanlıqla yanaşı tələbkarlığını da əldən buraxmamasıdır. Fakültəmizdəki xidməti müddətində onun işinə nə qədər əhəmiyyət verdiyini hər kəs açıq görərdi.

Demək olar ki günün hər satında Ömər bəyi fakültənin bir məsələsi ilə məşğulkən görmək mümkündü. Bundan əlavə şəxsən mənim müəllimlik təcrübəmim ilk illərində Ömər bəydən öyrəndiyim çox şey oldu. Bunun üçün ona həqiqətən çox minnətdaram.

Ömər bəylə bağlı xoş xatirələrin unudulması mümkün deyildir. Bu xatirələrin Ömər bəy üçün də daimi olması arzusu ilə ona ailəsi, xüsusilə də Muhammədi ilə birlikdə ən xoşbəxt illəri və səhhətli ömrü arzulayıram. Çünki Ömər bəy buna layiq bir insandır.

**Mübariz CAMALOV**
*BDU İlahiyyat fakültəsi*

Ömər müəllim haqqında xatirələri yada saldığımda qeyri ixtiyari olaraq üzümdə səmimi bir təbəssüm yaranır. Mənə elə gəlir ki bu, Ömər müəllimin öz səmimiliyindən qaynaqlanmaqdadır. Fakultəyə ilk gəldiyimdə Ömər müəllimin də Azərbaycanda hizmətə basladığı ikinci il olduğunu öyrəndim. Lakin o qədər bu işə bağlı idi ki, sanki illərdir buradadır və sanki artıq buralıdır. Ömər müəllim özünün alicənablığı, mərdliyi və insansevərliyi ilə bütün tələbələrin və müəllim kollektivinin hörmətini qazanmış müəllimlərdəndir. Çox ciddi amma bir o qədər səmimi, bəzən çox sərt amma bir o qədər də mülayim xasiyyətə sahib olub, bütün bu xüsusiyyətləri insanlarla rəftarında ən gözəl şəkildə göstərə bilən Ömər müəllim haqqında hər kəs əminəm ki mənim kimi xoş təəssuratdadır.

**Mehriban QASIMOVA**
*BDU İlahiyyat fakultəsinin müəlliməsi*

## ÖMƏR HOCA HAQQINDA

İstər mən fakultədə tələbə ikən, istərsə də müəllim olaraq burada işlədiyim gündən etibarən, bir çox Türkiyəli müəllimlə tanış və dost olma fürsətim oldu. Hərəsinin özünə görə xasiyyəti və xüsusiyyətləri vardı. Ömər hocamla çox da uzun müddət bir yerdə çalışmamağıma baxmayaraq, qısa müddət ərzində, aramızda isti münasibət yarandı. Bu insandakı din və vətənə xidmət anlayışı, məndə ona qarşı çox böyük bir hörmətin yaranmasına səbəb